*Türkiyənin texnoloji müstəqillik yolunda atdığı strateji addımlara daha bir yenisi əlavə olunub. "TEKNOFEST-2025" çərçivəsində Türkiyənin texnologiya və müdafiə sənayesinin öncüllərindən Selçuk Bayraktar milli texnologiya hərəkatının bir parçası olaraq mühüm addım atıb. S.Bayraktar tərəfindən təqdim edilən və tamamilə yerli imkanlarla hazırlanmış "NEXT Sosyal" adlı sosial mesajlaşma və paylaşım platforması ictimaiyyətə təqdim olunub. Platforma Türkiyənin yeni rəqəmsal ideologiyasının daşıyıcısı sayılır.*

# Türkiyədə yerli sosial media erası başlayır



"NEXT" - ingiliscə "növbəti" mənasını daşıyan tətbiq həm texnoloji, həm də simvolik olaraq Türkiyənin növbəti mərhələyə keçidini ifadə edir. Platforma ilk baxışdan mesajlaşma və sosial şəbəkə tətbiqi kimi görünə bilər, lakin onun arxasında daha dərin milli texnologiya konsepsiyası dayanır. Əsas funksiyaları tamamilə yerli serverlərdə saxlanılan məlumatlardan, şifrələmə ilə mesaj təhlükəsizliyindən, foto, video, fayl və səsli mesaj göndərmə imkanından, özəl və qrup söhbətlərindən ibarətdir.

"NEXT Sosyal" həmçinin xəbərlərə, texnologiyaya, həyat tərzinə və cari hadisələrə fokuslanan, tamamilə yerli resurslarla hazırlanmış sosial media platformasıdır. T3 Fondu və Baykar ilə əməkdaşlıqda istifadəyə verilən platforma "TEKNOFEST-2025" ruhunu rəqəmsal dünyaya çatdırmaq, istifadəçilərə təhlükəsiz, icma mərkəzli və innovativ təcrübə təqdim etmək məqsədi daşıyır. "Biz bacardıq" şüarı ilə təbliğ edilən "NEXT Sosyal" xüsusilə gənclər arasında sürətlə populyarlıq qazanıb və yeni sosial media tətbiqində istifadəçi sayı artıq 200 mini keçib.

Bu xüsusiyyətlərlə "NEXT", "WhatsApp", "Telegram", "Instagram" kimi qlobal platformalara alternativ olmağa iddialıdır - lakin əsas fərqi, tamamilə milli olması və məlumatların xaricə sızdırılmasının qarşısını almasıdır.

Qeyd edək ki, xarici sosial media platformalarının nəzarətsizliyi, məlumat təhlükəsizliyi problemləri və uşaqları təhdid edən məzmunu aradan qaldırmaq üçün belə bir yerli həll yolu hazırlanıb. Bu da tətbiq istifadəçi məlumatlarının ölkədən çıxmasının qarşısını alır, cinayətlə mübarizəyə töhfə verir və rəqəmsal təhlükəsizliyə üstünlüyü ilə seçilir.

Virtual media proqramları hazırda ABŞ və ya Çində yerləşən şirkətlər tərəfindən idarə olunur. Bu tətbiqlərə nəzarətin olmaması bu platformaları cinayət və dezinformasiya mərkəzinə çevirib. Beləliklə, "TEKNOFEST" gəncləri bu vəziyyətə son qoymaq üçün hərəkətə keçib, yerli və milli sosial media platforması olan "NEXT Sosyal"ı inkişaf etdirib.

**"Baykar" şirkətinin İdarə Heyətinin sədri Selçuk Bayraktar** "NEXT Sosyal" sosial media platformalarının hazırkı vəziyyətinə toxunaraq




deyib: "Texnologiyada tam müstəqil olmaq üçün yalnız dron və raketlər yetmir. Sosial platformalar, mesajlaşma tətbiqləri və gündəlik istifadə etdiyimiz sistemlər də milli olmalıdır. Təəssüf ki, hazırda sosial media insanların istədikləri kimi istifadə edə bilmədiyi bir mühitə çevrilib. Biz müdafiə sənayesində yeni bir məşəl yandırdıq və bu indi texnologiyanın digər sahələrinə də yayılır. "NEXT Sosyal" tətbiqi data təhlükəsizliyi və müstəqil texnologiya baxımından strateji əhəmiyyətə sahibdir. Bu tətbiq təkcə texnoloji deyil, həm də ideoloji və strateji bir təşəbbüsdür. Xarici platformaların istifadəçi məlumatlarını hansı məqsədlərlə istifadə etdiyinə dair narahatlıqların artdığı bir dövrdə, yerli alternativlərə ehtiyac daha da aktuallaşdı. Və inanıram ki, "NEXT Sosyal", bu baxımdan vacib bir boşluğu dolduracaq". S.Bayraktar, bu layihənin gənclərə, tədqiqatçılara və texnologiya sevərlərə yeni imkanlar yaradacağını və "TEKNOFEST" ruhunu rəqəmsal aləmə daşıyacağını da vurğulayıb.

Platforma "App Store"un "Sosial Şəbəkə (Social Networking)" kateqoriyasında populyar pulsuz tətbiqlər siyahısında birinci yerə yüksəlib. İstifadəçilərin son dövrlərdəki marağını əks etdirən sıralamaya görə, "NEXT TEKNOFEST Sosyal"dan sonra ikinci yerdə "Telegram", üçüncü yerdə isə "Facebook" qərarlaşıb.

**Rəqəmsal ədliyyə mütəxəssisi professor Ali Murat Kırık** da platformanın təhlükəsizlik tərəfinə diqqət çəkərək deyib: "Çox təəssüflər olsun ki, hazırda sosial media vasitəsilə ailə quruluşu hədəfə alınır. Gənclər reallıqdan qoparaq yetişdirilir. Uşaqların inkişafına mane olan, manipulyasiyaya və davranışlarına təsir edən amillər getdikcə daha da çox yayılır. Bu, cinayətin qarşısının alınmasında "NEXT Sosyal" mühüm bir addım sayılır. Platforma təkcə



məzmun təhlükəsizliyində deyil, həm də məlumatların məxfiliyində də yeni bir səhifə açır. İstifadəçi məlumatları xaricə ixrac edilmədən tamamilə Türkiyədə qorunacaq. Bu o deməkdir ki, şəxsi məlumatlar üçüncü şəxslərə ötürülmədən saxlanılacaq. Həmçinin bu platforma siyasətçilərin bəyanatlarının dəqiq, etibarlı və anında ictimaiyyətə çatdırılmasını da təmin edəcək. Qavrayışın idarə edilməsi əməliyyatları, məlumat sızması, fırıldaqçılıq və dezinformasiya kimi risklərin gücləndiyi rəqəmsal dünyada bu platforma həm də milli təhlükəsizlik üçün strateji addım kimi qiymətləndirilir".

Qeyd edək ki, "NEXT Sosyal"a qoşulmaq çox asandır. Proqram Android və ya iOS cihazına asanlıqla endirilə bilinir. Platforma canlı rəy ilə yazıların təsirini ölçmək imkanı təklif edir və istifadəçilərə öz icmalarını qurmağa imkan verir. "NEXT Sosyal"ın diqqətçəkən xüsusiyyətlərindən biri də T3 Fondu və Baykar tərəfindən hazırlanmış süni intellekt robotu "T3AI"dır. "Etik süni intellekt" vizyonu ilə hazırlanmış T3AI istifadəçilər tərəfindən işarələnən yazılara cavab verə və çoxdilli məzmunu da anlaya bilir.

Artıq 67 vilayətdə minlərlə istifadəçi ilə betaversiyada sınaqdan keçirilmiş "NEXT Sosyal" böyük uğur qazanıb. 17-21 sentyabr tarixləri arasında Atatürk Hava Limanında keçiriləcək "TEKNOFEST-2025" ilə inteqrasiya olunacaq platforma festival həyəcanını rəqəmsal aləmə daşıyacaq. Canlı yayımlar və tədbirlər vasitəsilə istifadəçiləri bir araya gətirməyi hədəfləyən platforma Türkiyənin rəqəmsal müstəqilliyinə töhfə verməyi və qlobal sosial media nəhənglərinə alternativ olmağı hədəfləyir.

Beləliklə, Selçuk Bayraktar və Türkiyə T3 Fondunun təşəbbüsü ilə həyata keçirilən "NEXT Sosyal" layihəsi təkcə texnoloji deyil, həm də milli kimliyi qorumağa yönəlik strateji addımdır. Sosial media və mesajlaşma alətlərinin xarici nəzarətində olduğu bir dövrdə, "NEXT" kimi milli tətbiqlər Türkiyənin və türk dünyasının rəqəmsal suverenliyi üçün önəmli rol oynayacaq.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin Türkiyə üzrə müxbiri.**

Respublika .- 2025.- 29 iyul (№155).- S.7.